# ƏMƏYİN MÜHAFİZƏSİ VƏ TƏHLÜKƏSİZLİK TEXNİKASI ÜZRƏ MÖVZULAR (MÜHƏNDİS və TEXNİKİ İŞÇİLƏR)

1. Əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydaları
2. "Azərbaycan Neft Sənayesində Əməyin mühafizəsinin Vahid İdarəetmə Sistemi"-ni.
3. Əməyin mühafizəsinə nəzarət edən orqanlar
4. İlkin tibbi yardım barədə məlumat
5. Yanğın təhlükəsizliyi qaydaları

**1. Əməyin mühafizəsinin məqsədi nədir?**
A) Müəssisənin nüfuzunu qorumaq
B) İşçilərin sağlamlığını qorumaq, istehsalat etibarlılığını təmin etmək, işdə təhlükəsizliyi təmin etmək
C) Rəhbərliyin tapşırığını yerinə yetirmək
D) Əmlaka ziyan vurmamaq
E) İşçilərin əmək haqqını qaldırmaq

**2. Neft sənayesi müəssisələrində əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə aparılan işlər hansı rəhbər sənədlərə əsasən idarə olunur?**
A) İdarənin əmr və sərəncamları ilə
B) "Azərbaycan Neft Sənayesində Əməyin Mühafizəsinin Vahid İdarəetmə Sistemi" ilə
C) "Dövdağtexnəzarət" Agentliyi tərəfindən təsdiq olunmuş qaydalar ilə
D) Neft sənayesi Həmkarlar təşkilatının qərar və qətnamələri ilə
E) Qüvvədə olan əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydaları ilə

**3. Fövqəladə hallar zamanı işçilərin bina və tikililərdən çıxması üçün əsas çıxışdan başqa hansı çıxış nəzərdə tutulur?**
A) Fövqəladə hallar üçün çıxış
B) Təxliyyə çıxışı
C) Ehtiyat çıxışı
D) Əlavə çıxış
E) İkinci dərəcəli çıxış

**4. Ağırlıq dərəcəsindən asılı olmayaraq bütün növ xəsarətlər, bir nəfərin həlak olması və qrup halında baş vermiş bədbəxt hadisəni kimlər araşdırmalıdır?**
A) Dövlət Əmək Müfəttişliyi rəisinin əmri ilə yaradılmış təhqiqat komissiyası
B) Müəssisə üzrə əmrlə yaradılmış təhqiqat komissiyası
C) Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin əmri ilə yaradılmış təhqiqat komissiyası
D) Fövqəladə Hallar Nazirliyi sənayedə işlərin görülməsi və Dağ-mədən nəzarəti dövlət agentliyinin əmri ilə yaradılmış təhqiqat komissiyası
E) Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Həmkarlar Təşkilatının əmri ilə yaradılmış təhqiqat komissiyası

Nümunə

**5. Təhqiqat komissiyası nəyi təhqiq və aşkar edir?**
A) İşçilərin tibbi müayinələrdən keçmələrini təhqiq edir və müayinədə buraxılmış səhvləri aşkar edir
B) Əmək şəraitinin yoxlanması jurnalında pilləli nəzarət sisteminin aparılmasını təhqiq edir və aradan qaldırılmayan nöqsanlarda məsul şəxsləri aşkar edir
C) Bədbəxt hadisəni iş yerində öyrənir, əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarının standartlarının pozulmasına yol vermiş şəxsləri aşkar edir
D) Bədbəxt hadisənin səbəbini və iş yerinin şəraitini təhqiq edir, əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarının standartlarının pozulmasına yol vermiş şəxsləri aşkar edir
E) Bədbəxt hadisənin səbəbini və iş yerinin şəraitini ayırd edir, əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarının standartlarının pozulmasını təhqiq edir

**6. Müəssisədə giriş təlimatı kim tərəfindən keçirilməlidir?**
A) Sahə üzrə mühəndis və ya usta
B) Həmkarlar Təşkilatı nümayəndəsinin iştirakı ilə ƏM və TT xidməti
C) ƏM və TT xidməti
D) Kadrlar şöbəsinin rəisi
E) Sosial şöbəsinin rəisi

**7. Əmək şəraitinin vəziyyətinə nəzarətin ikinci mərhələsi kimlər tərəfindən aparılır?**
A) Sex və ya qurğu rəisi və struktur bölmələri üzrə DFK
B) Müəssisənin həmkarlar ittifaqı komitəsi
C) Əməyin mühafizəsi üzrə daimi fəaliyyət göstərən komissiya
D) Müəssisə rəhbəri və ya ƏM və TT xidməti
E) Baş mühəndis

**8. Daimi fəaliyyət göstərən komissiya hansı sənədə əsasən yaradılır?**
A) Baş mühəndisin təqdimatı əsasında
B) Əməyin mühafizəsini idarə etməyin vahid sistemin tələbləri əsasında
C) Həmkarlar komitəsinin qərarı əsasında
D) Fövqəladə Hallar Nazirliyi Sənayedə işlərin görülməsi və Dağ-mədən nəzarəti dövlət agentliyinin qərarı əsasında
E) Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin qərarı əsasında

**9. Partlayış-yanğın təhlükəli müəssisə və qurğuların ərazisinə girişə necə icazə verilir?**
A) Buraxılış vərəqəsi olmadan icazə verilir
B) Əməyin təhlükəsizliyi nümayəndəsinin göstərişi ilə icazə verilir
C) Buraxılış vərəqəsi olmadan icazə verilmir
D) Sahə rəisinin icazəsi ilə buraxılır
E) Yalnız xüsusi buraxılış vərəqəsi ilə icazə verilir

NÜMUNƏ

**10. Əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə hansı işçilərin bilikləri yoxlanılır? Tam düzgün cavabı seçin.**
A) Rəhbər işçilərin
B) Fəhlələrin
C) Mühəndis texniki işçilərin
D) Bütün işçilərin
E) Yeni işə başlayan işçilərin

NÜMUNƏ